

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 fevral 2026-cı il №12 (3014) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün birinci xanım Mehriban Əliyeva ilə birlikdə fevralın 13-də Almaniya Federativ Respublikasına səfərə gəlib.*

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşüb.

Söhbət zamanı Neçirvan Bərzaninin Azərbaycana səfərləri, həmçinin dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanaraq, bütün bunların əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirilib.

Azərbaycan Prezidenti və İraq Kürdüstan Regionunun başçısı iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparıblar, qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

Dövlətimizin başçısı Neçirvan Bərzanini ölkəmizə səfərə dəvət edib. İraq Kürdüstan Regionunun başçısı dəvəti məmnunluqla qəbul edib.

(Ardı 2-ci səhifədə)



## Prezident İlham Əliyev Münxendə “France 24” telekanalına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə "France 24" telekanalına müsahibə verib.

**Müxbir:** Salam, "France 24" kanalının flaqmanı olan "Üzbəüz" verilişinə xoş gəlmisiniz. Bu gün bizim qonağımız Azərbaycan Prezidenti İlham Əliyevdir. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

**Müxbir:** Avqustun 8-də Sizin, Ermənistanın Baş naziri Nikol Paşinyanın və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə üçtərəfli görüş keçirildi. Azərbaycan ilə Ermənistan arasında münaqişəyə son qoymaq, nəqliyyat marşrutlarının açılması və münasibətlərin normallaşdırılması haqqında bəyannamə imzalandı. Tam sülhün və tam normallaşmanın tezliklə olacağını düşünürsünüzmü?

(Ardı 3-cü səhifədə)

## Gənc əsgərlərin yaxınlarının nəzərinə

Fevral ayı ərzində gənc əsgərlərlə görüşlər yalnız 15-i və 22-si tarixlərində keçiriləcəkdir.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşlər yalnız şəxsiyyətini təsdiq edən sənədi təqdim etmiş yaxın qohumlara - valideynlər, həyat yoldaşı, uşaqlar, baba və nənə, həmçinin doğma və ögey (eyni ata və ya anası olan) qardaş və bacılara icazə veriləcək.

Şəxsi heyətin sağlamlığının qorunması məqsədilə görüşlərə qida və ya ərzaq məhsulları gətirmək qadağandır.

## General-polkovnik Zakir Həsənov: Azərbaycan Ordusu bundan sonra da Ali Baş Komandanın və xalqımızın etimadını layiqincə doğruldacaq

*14 fevral 2026-cı il tarixində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2025-ci ilin yekunlarına dair Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, nazir müavinləri, qoşun (qüvvə) növləri komandanları, Əlahiddə Ümumqoşun Ordu Komandanı, Milli Müdafiə Universitetinin rektoru, baş idarə, idarə rəisləri, hərbi birlik, birləşmə komandirlərinin və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə videobağlantı formatında keçirilən iclasda ötən ildə görülmüş işlərin nəticələri təhlil edilib və 2026-cı ildə qarşıda duran vəzifələr müzakirə olunub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, həmçinin Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında 2025-ci ildə ordu quruculuğu sahəsində həyata keçirilən uğurlu islahatlardan danışıb, Ali Baş Komandanın Ordu qarşısında qoyduğu tapşırıqları iştirakçılara çatdırıb. Azərbaycanın beynəlxalq nüfuzunun davamlı şəkildə yüksəlməsində və regionun qlobal güc mərkəzinə çevrilməsində ölkəmizin müdafiə potensialının mühüm rol oynadığını xüsusi qeyd edib.

(Ardı 6-cı səhifədə)

## Hərbi Hava Qüvvələri - səmamızın etibarlı müdafiəçiləri

Azərbaycanın ordu sistemində mühüm yer tutan Hərbi Hava Qüvvələri (HHQ) ölkənin hava məkanının etibarlı qorunmasını təmin edən əsas hərbi strukturlardan biridir. Müasir dövrdə HHQ yalnız müdafiə funksiyası ilə kifayətlənmir, həm də strateji əməliyyatların planlaşdırılması və icrasında, hava üstünlüyünün təmin olunmasında və digər qoşun növlərinin fəaliyyətinin dəstəklənməsində xüsusi rol oynayır. Aviasiya bölmələri, hava hücumundan müdafiə vasitələri, radiolokasiya sistemləri və yüksək hazırlıqlı şəxsi heyət bu qüvvələrin əsas dayaqlarını təşkil edir.

Azərbaycan Hərbi Hava Qüvvələri ayrıca hərbi qurum kimi 14 fevral 1992-ci ildə təsis olunub və həmin tarix ölkəmizdə rəsmi olaraq “Hərbi Hava Qüvvələri Günü” kimi qeyd edilir. Bu addım müstəqil dövlətimizin müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində atılan mühüm strateji addımlardan biri idi.

(Ardı 7-ci səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya səfəri



**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ilə görüşüb.

Söhbət zamanı Azərbaycan Prezidentinin ötən ilin dekabrında Slovakiyaya rəsmi səfəri məmnunluqla xatırlanaraq, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi vurğulanıb.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərin qarşılıqlı anlaşma və dəstəyə əsaslandığı vurğulanıb, müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların olduğu bildirilib, bu xüsusda hərbi-texniki sahədə tərəfdaşlığın inkişafından məmnunluq ifadə edilib, bu tərəfdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-ın "Oracle" korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşüb.

Söhbət zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə texnoloji transformasiya və süni intellekt sahələrinin inkişafı üzrə həyata keçirilən siyasətə toxunulub, bu xüsusda "Oracle" korporasiyası ilə əməkdaşlığın genişləndirilməsində qarşılıqlı marağın olduğu bildirilib və tərəfdaşlığın perspektivləri ilə bağlı artıq çərçivə razılaşmasının əldə edildiyi vurğulanıb.



"Oracle" şirkətinin Azərbaycanda dövlət və özəl müəssisələrə bir sıra xidmətlərin göstərilməsi ilə bağlı uzunmüddətli əməkdaşlıq məsələləri müzakirə olunub. Azərbaycanın müxtəlif aparıcı ali təhsil müəssisələrində üç "Oracle" akademiyasının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə, eyni zamanda, Azərbaycan-ABŞ siyasi əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edilib, bu xüsusda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının əhəmiyyətinə toxunulub. Həmin sənəddə də ölkələrimiz arasında süni intellekt sahəsinin prioritet istiqamət kimi əks olunduğu vurğulanıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev Münxendə Azərbaycan telekanallarına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibə verib.

**REAL Televiziyası:** Cənab Prezident, bizə vaxt ayırdığınız üçün təşəkkür edirik. Budəfəki Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın mesajı nə olacaq?

**Prezident İlham Əliyev:** Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt - yeni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır.

**İctimai Televiziya:** Cənab Prezident, bu il Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması gözlənilirmi?

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, bu, bizdən asılı deyil. Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, mən hesab edirəm ki, artıq Ermənistanla Azərbaycan arasında sülh əldə edilib. Vaşinqton Zirvə Görüşündəki razılaşmalar, imzalanmış Birgə Bəyannamə və sülh müqaviləsinin paraflanması de-fakto sülh deməkdir. Bunun formal tərəfi Ermənistandan asılıdır. Konstitusiyaya nə qədər tez dəyişiklik edilərsə və Azərbaycana qarşı olan ərazi iddiası oradan çıxarılarsa, sülh müqaviləsi o qədər də tez imzalanacaq.

**AnewZ Televiziyası:** Cənab Prezident, bu gün danışdığımız hər kəs köhnə dünya nizamının dağıldığını və yeni dünyanın peyda olacağını deyir, lakin o, hələ də peyda olmayıb. Sadəcə, bir neçə həftə bundan öncə Davosda Siz "Sülh Şurasının Nizamnaməsi"ni imzaladınız. Azərbaycan qurumun təsisçi üzvüdür. Bir neçə gündən sonra isə Vaşinqtonda daha bir görüş olacaq. Yeni dünya nizamının potensial elementi olaraq bu təşkilat haqqında nə düşünürsünüz?

**Prezident İlham Əliyev:** Bilirsiniz, əgər xatırlayırsınızsa, mən bu haqda danışmışam, ola bilsin, təfərrüatı ilə yox, amma, ümumiyyətlə, demişəm ki, beynəlxalq hüquq artıq etibarlı deyil. Ölkələr, bir çox ölkələr ona sadəcə məhəl qoymurdu. Yalnız beynəlxalq hüquqa arxalanmaq problemini həll etməyəcək. Azərbaycanın nümunəsi isə bunu həqiqətən nümayiş etdirir. Beləliklə, yeni dünya nizamının və ya hökumətlərarası münasibətlər üzrə yeni sistemin peyda olması, əlbəttə ki, işlənilmə mərhələsində idi. Məsələ onda idi ki, ilk addımı atmaq üçün kim üzərinə məsuliyyət götürəcək. Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş gördü.




Əlbəttə ki, hər şey gündəlikdən asılı olacaq. Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı "kim güclüdür, o da haqlıdır" anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir.

**CBC Televiziyası:** Cənab Prezident, Münxen Təhlükəsizlik Konfransının proqramına əsasən, sabah nəqliyyat dəhlizlərinə həsr olunmuş panel sessiyasında Sizin iştirakınız gözlənilir. Azərbaycan Avropa ilə Asiya arasında nəqliyyat dəhlizlərinin formalaşdırılmasında öz rolunu necə görür?

**Prezident İlham Əliyev:** Biz artıq uzun müddətdir ki, dəhlizlərin yaradılmasının təşəbbüskarıyıq - enerji dəhlizlərindən başlayaraq, nəqliyyat dəhlizləri ilə davam edərək, hazırda isə artıq elektrik və fiber-optik dəhlizləri də əhatə etməklə. Buna görə də ölkəmizin potensialı möhkəmləndikcə, beynəlxalq əlaqələr inkişaf etdikcə, biz bir növ mövcud bağlantı konsepsiyasına yeni elementlər əlavə edirik.

Əgər neft və qaz kəmərlərini artıq reallaşmış fakt hesab etmək olarsa, baxmayaraq ki, qaz nəqli infrastrukturumun genişləndirilməsinə ehtiyac var, əgər dəmir yolu əlaqələri ilə bağlı məsələlərin qismən həll olunduğunu nəzərə alsaq və Azərbaycanın nə tranzit daşımaların təmin edilməsində, nə də öz məhsullarının ixracında xüsusi çətinliklərlə üzləşmədiyini qeyd etsək, - hərçənd, Zəngəzur dəhlizi buna əlavə töhfə olacaq, - o zaman elektrik kabelləri, fiber-optik kabellər, məlumat mərkəzlərinin və süni intellektin fəaliyyəti nəticəsində informasiyanın ötürülməsi və tranziti ilə bağlı məsələlər hazırda konkret olaraq məşğul olduğumuz sahələrdir.

Bizim çox üstünlüklərimiz var: coğrafiya, həm Qərbdə, həm də Şərqdə qonşularla sıx əlaqələr, elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadrlar və bir çox digər üstünlüklər. Buna görə də bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir. Azərbaycanın öz təhlükəsizliyini və suverenliyini öz gücü ilə təmin etməsi nəzərə alınmaqla, təbii ki, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Buna görə də biz dəhlizlər haqqında danışarkən, əlbəttə ki, bu məsələyə daha geniş baxmalıyıq: yalnız dəmir yolu və yalnız avtomobil yolu deyil, həm də bağlantını təmin edən və müasir dünyanın tələblərinə cavab verən bütün istiqamətlər nəzərə tutulmalıdır. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev Münxendə “France 24” telekanalına müsahibə verib

(Əvvəli 1-ci səhifədə)

**Prezident İlham Əliyev:** Bəli, elə düşünürəm. Çünki bu tarixi sənədin Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə imzalanması o deməkdir ki, münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq. Yeri gəlmişkən, ABŞ Prezidenti Birgə Bəyannaməni də şahid qismində imzalamışdır. O vaxtdan bəri altı aydan çox müddət keçib və bizim Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq atəş açılmır, qurban vermirik, yaralananlar olmur. Azərbaycan birtərəfli qaydada Ermənistana malların tranziti üzərində olan məhdudiyyətləri aradan qaldırdı. Biz, həmçinin Ermənistana vacib neft məhsullarını təchiz etməyə başladıq və bununla da bizim ticari münasibətlərimiz başladı. Beləliklə, görə bilərik ki, artıq sülhə nail olunub. Yekun sülh sazişini imzalamaq üçün müəyyən formal xarakter daşıyan məsələlər var. Lakin qeyd etdiyiniz bəyannamə ilə yanaşı, hər iki ölkənin xarici işlər naziri Vaşinqtonda sülh sazişinin mətnini də parafladılar. Beləliklə, mənim üçün bu, artıq bitmiş işdir. Hesab edirəm ki, Ermənistanın Baş naziri də mənimlə eyni fikirdədir. Biz elə indi sülh şəraitində yaşamağı öyrənirik və bu, çox yaxşı bir hissdir.

**Müxbir:** Bu, çox yaxşı bir hissdir. Lakin tam normallaşma üçün nə çatışmır? Belə başa düşürəm ki, Azərbaycan üçün məsələ Ermənistanın Konstitusiyası və orada Qarabağa aid ərazi iddiaları ilə bağlı mətnlə əlaqədardır. Bu, Sizin üçün mütləq qırmızı xətt deməkdir? Bu dəyişməsə, normallaşma olmayacaq?

**Prezident İlham Əliyev:** Bəli, siz haqlısınız. Bu olmasa, sülh sazişi imzalanmayacaq. Mən normallaşmanı rəsmi sülh sazişindən ayırardım, çünki normallaşma artıq baş verir. Qeyd etdiyim kimi, müsbət məcrada inkişaf edən bütün hadisələr bunu göstərir. Lakin Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da "qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir" məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq.

**Müxbir:** Bu il?

**Prezident İlham Əliyev:** Sözsüz ki.

**Müxbir:** Vitse-prezident Cey. Di. Vens hər iki ölkəyə səfər edib. Strateji tərəfdaşlıq münasibətləri elan edilib və bu tərəfdaşlıq çərçivəsində ABŞ indi Azərbaycana bütün növ silahları satacaq. Həmçinin TRIPP layihəsi, yaxud Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu var. Bu, Ermənistandan keçən və eksklavınız olan Naxçıvana gedən magistral yol və dəmir yoludur. Bu, sadəcə boş ümidlərdir, yoxsa həqiqətən baş verəcək və dinamikanı dəyişəcək?

**Prezident İlham Əliyev:** Məndə bunun baş verəcəyinə dair heç bir şübhə yoxdur. Bunun səbəblərindən biri də odur ki, Amerika Birləşmiş Ştatları bu prosesdə çox vacib rol oynayır. Azərbaycanın iki ərazisini Ermənistan ərazisindən birləşdirəcək və hətta Avropa qitəsinə qədər uzanacaq marşrut Prezident Trampın adını daşıyır. Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutudur. Düşünürəm ki, ABŞ Prezidentinin şəxsən öz üzərinə götürdüyü bu öhdəlik və ABŞ hökumətinin gündəliyi TRIPP-in inşa olunacağını göstərir. Bu, böyük məsafə deyil, cəmi 40 kilometrdən çoxdur. Yeri gəlmişkən, demək istərdim ki, hazırda Azərbaycanın paytaxtdan Ermənistan sərhədinədək inşa etməkdə olduğu dəmir yolu təxminən 400 kilometrdir. Üstəlik demək olar ki, 200 kilometrlik hissə bizim Naxçıvan eksklavında bərpa olunacaq. Beləliklə, bizim adlandırdığımız kimi, Zəngəzur dəhlizinin Ermənistan seqmenti çox qısadır. Əminəm ki, bu, həyata keçiriləcək.

Vitse-prezident Vensin səfəri ilə bağlı suala gəldikdə isə bəli, bu, çox mühüm bir səfər idi. Birləşmiş Ştatların Vitse-prezidentinin səfəri özlüyündə istənilən ölkə üçün əhəmiyyətlidir. Hazırkı vəziyyətdə bu, Birləşmiş Ştatlar və Azərbaycan hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ilə əlamətdar oldu. Beləliklə, biz dünyanın ən güclü ölkəsinin rəsmi strateji tərəfdaşı olduq və bunu ölkəmiz üçün böyük uğur hesab edirik.

Bu Strateji Xartiya mətbuatda dərc olundu, o, müxtəlif bölmələrdən ibarətdir. Onlardan biri müdafiə məhsullarının satışı ilə bağlıdır, amma təkcə bu deyil. Buraya enerji, bağlantı, süni intellekt, investisiya və ticarət daxildir, həmçinin Azərbaycana silah tədarükü ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılıb.

**Müxbir:** Ölkənizdə hərbi məhkəmənin Qarabağ bölgəsinin 13 şəxsinə ağır həbs cəzaları, o cümlədən keçmiş liderinə ömürlük həbs cəzası verməsinə dair qərarına toxunmaq istəyirəm. ABŞ Vitse-prezidentinin bu məsələ ilə bağlı danışdığı və bölgədə sülhə nail olunması məqsədilə Sizdən bəlkə də onları əfv etməyinizi istədiyi barədə məlumatlar var idi. O, bunu edibmi və Siz bunu edəcəksinizmi?

**Prezident İlham Əliyev:** Vitse-prezidentlə bir neçə saat davam edən görüş zamanı digər məsələlərlə yanaşı, bu məsələ də onun tərəfindən qaldırıldı və mən bu məsələ ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim, vəssalam. Biz, əsasən, ikitərəfli əlaqələri, regional inkişafı, TRIPP və Ermənistanla rəsmi sülh perspektivlərini müzakirə etdik. Qeyd etdiyiniz bu insanlara gəldikdə isə, onlar bizim ərazimizdə, Ermənistan da daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren Azərbaycan dövlətinin ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin liderləridir.



Bu insanlar uzun illər ərzində azərbaycanlılara və Azərbaycana qarşı törədilən bütün müharibə cinayətlərinin təşkilatçıları olublar və məsuliyyətə cəlb ediliblər. Onlar bizim həyata keçirdiyimiz hərbi əməliyyat nəticəsində Qarabağda saxlanılıb məsuliyyətə cəlb olunublar. Onlar vəkillərlə təmin ediliblər. Məhkəmə prosesi tamamilə şəffaf keçib. Onların cinayətləri şahid ifadələri, çoxsaylı ifadələrlə sübuta yetirilib, hər hansı qanun pozuntusundan söhbət gedə bilməz.

**Müxbir:** Cənab Prezident, bəs Siz bununla bağlı nə isə edə bilərsinizmi?

**Prezident İlham Əliyev:** Siz nəyi nəzərdə tutursunuz?

**Müxbir:** Yeni səhifə açıb onları əfv edə və ya buna bənzər nə isə bir jest edə bilərsiniz. Bu, Sizin səlahiyyətiniz daxilindədir.

**Prezident İlham Əliyev:** Bilirsiniz, bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin.

**Müxbir:** Bu, Sizin üçün eyni şeydir?

**Prezident İlham Əliyev**: Bəli, tamamilə. Hətta daha da pisdir, daha da pisdir. Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi.

**Müxbir:** Bəs, yeni səhifə açmaq baxımından, sonuncu müharibə nəticəsində Qarabağı tərk etmək məcburiyyətində qalan ermənilərə qarşı bir az mərhəmət hiss edirsinizmi?

**Prezident İlham Əliyev:** Bizim bu məsələ ilə bağlı mövqeyimiz çox aydın olub. Bizim Qarabağda yaşayan bütün ermənilərə vətəndaşlıq və ya iş icazəsi üçün müraciət etməyi təklif etdiyimiz dəfələrlə səsləndirilib, o cümlədən veb-saytda dərc olunub. Qarabağ ermənilərinin nümayəndələri ilə bir neçə dəfə görüşlərimiz oldu, lakin onlar Ermənistana getmək seçimini üstün tutdular. Bugünkü Ermənistan ərazisindən deportasiya edilmiş və etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlımız var, lakin Ermənistan hökuməti onların geri qayıtması üçün heç vaxt heç bir təklif irəli sürməyib. Düşünürəm ki, bu məsələyə qarşılıqlı nöqteyi-nəzərindən yanaşmalıyıq. Qayıdış hüququ universal bir hüquqdur və əlbəttə ki, bizə belə bir müraciət olarsa, Azərbaycan bu hüquqa mütləq əməl edəcək. Lakin, eyni zamanda, 30 il Ermənistanla müharibə şəraitində olduğumuzu və 30 il ərzində onların ərazimizi işğal altında saxladığını nəzərə alsaq, Qərbi azərbaycanlılar adlandırdığımız yüz minlərlə azərbaycanlıya qarşı da eyni münasibəti gözləyirik ki, bugünkü Ermənistana qayıda bilsinlər.

**Müxbir:** Mən qısaca olaraq, Fransa ilə münasibətlərə keçmək istəyirəm. Əlaqələr, xüsusən də son müharibə zamanı çox pis olub. Siz Fransanı Yeni Kaledoniyada, Korsikada müstəmləkə ölkəsi olaraq, çox ağır sözlərlə tənqid etdiniz. Bir neçə ay əvvəl, Fransa vətəndaşı Teo Klerk azad edildi. Hazırda digər vətəndaşın məhkəməsi gedir. "Avropa Siyasi Birliyi"nin Zirvə Görüşü çərçivəsində Sizin Fransa Prezidenti ilə qısa görüşünüz oldu. Deyə bilərsinizmi, münasibətlər öz məcrasına qayıdıb və ya Azərbaycan ilə Fransa arasında hələ problemlər qalır?

**Prezident İlham Əliyev:** Bilirsiniz, Fransa ilə problemlərin kökü bizdən gəlmir. İkinci Qarabağ müharibəsindən əvvəl Fransa ilə çox yaxşı münasibətlərimiz var idi. Prezident Sarkozinin, Prezident Ollandın səfərləri olmuş, mənim Fransaya rəsmi səfərlərim həyata keçirilmişdir. Eyni zamanda, mən Prezident Makronun hakimiyyəti dövründə Fransaya səfər etmişəm. Bizim çox mehriban münasibətlərimiz olub, çox biznes fəaliyyəti aparılıb, 10-dan artıq qardaşlaşmış şəhərlərimiz olub. İkinci Qarabağ müharibəsi başlayan zaman biz ərazi bütövlüyümüzün bərpasına start verdik. Əfsuslar olsun ki, Fransanın mövqeyi heç cür anlaşılan deyildi. Çünki Fransa bir tərəfdən, ölkələrin ərazi bütövlüyünü müdafiə edir, - o, öz ərazi bütövlüyünü müdafiə etməyə səy göstərir, hazırda Danimarkanın, Ukraynanın ərazi bütövlüyünü müdafiə edir, - lakin əfsuslar olsun ki, onlar separatçıların tərəfini tutdular. Milli Assambleya və Senat separatçılara dəstək məqsədilə 10-dan artıq qətnamə qəbul edib və Ermənistanın özü tanımasa belə, sizin parlament hətta qondarma "Dağlıq Qarabağ"ı tanıyıb. Həmçinin hökumətlə münasibətlər gərgin idi. Lakin bir daha deyirəm, biz həmin gərginliyin mənbəyi olmamışıq. Biz, sadəcə öz suverenliyimizə hörmətlə yanaşmanı istəyirdik.

**Müxbir:** Axı, Siz çox ağır sözlərdən istifadə etdiniz…

**Prezident İlham Əliyev:** Bilirsiniz, ağır sözlərdən istifadəni mən başlamamışam. İstəyirəm tam əmin olasınız, Azərbaycanın atdığı addımlar yalnız cavab idi. Bizdə Fransa Prezidentinin və bir çox fransız rəsmilərinin, o cümlədən Senatınızın sədrinin, Milli Assambleyanızın sədrinin, tanınan şəxslərin dövlətimizi və şəxsən məni təhqir etmək üçün istifadə etdikləri ağır sözlərdən kataloqumuz var. Bundan əlavə, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra və 2023-cü ildə antiterror əməliyyatından əvvəl xanım Pekres, cənab Barnye, cənab Retayyo kimi çox tanınan şəxslər, - bütün bu adlar auditoriyaya yaxşı məlumdur, - Qarabağa qeyri-qanuni səfərlər etmiş və separatçılara dəstək vermişlər. Bu, Azərbaycan dövlətçiliyinə açıq təhqir və tam hörmətsizlik əlaməti idi. Bizim tərəfimizdən deyilmiş sözlərin və ya atılmış addımların hamısı cavab olaraq baş vermişdir. Bəlkə də bu, ağır tərzdə olmuşdur. Ölçmək asan deyil. Lakin düşünürəm ki, bizim üçün vacib odur ki, qeyd etdiyiniz kimi, ötən ilin sonunda Prezident Makron ilə görüşüm oldu. Görüş çox müsbət keçdi və biz hər şeyi yenidən başlamaq razılığına gəldik. Biz buna hazırıq. Bizə hər hansı ölkə, o cümlədən Fransa ilə heç bir problem lazım deyil. Bir daha deyirəm, bu, bizim təşəbbüs deyildi, lakin indi düşünürəm ki, hər iki tərəf, xüsusən də Ermənistan ilə Azərbaycan arasında artıq əldə olunmuş sülhdən sonra normal münasibətlərə daha çox hazırdır.

**Müxbir:** Beləliklə, nəticə olaraq, biz yaxın gələcəkdə Fransa Prezidenti ilə Sizin görüşünüzü gözləyə bilərikmi?

**Prezident İlham Əliyev:** Bəli, birmənalı olaraq. Yeri gəlmişkən, Kopenhagendə görüşümüz çox dostcasına keçdi. Əlbəttə ki, görüş baş tutduqdan bir neçə ay sonra heyətlərimiz arasında xeyli təmaslar olub. Onlar müntəzəm olaraq əlaqədədirlər. Bir neçə görüş baş tutub. Bəli, bəzi məsələlər hələ də qalır. Prezident Makron və mən onların hər iki tərəfdən həll olunmasını qeyd etmişik. Lakin bir daha anlamaq vacibdir ki, bu hərəkət qarşılıqlı olmalıdır. İki suveren dövlət kimi biz bir-birimizə hörmət etməliyik, hüquq sistemlərimizə hörmətlə yanaşmalıyıq və bir-birimizin işlərinə qarışmalı deyilik. Əgər sizin sözdən istifadə etsəm, Kaledoniya və sairə məsələləri biz birinci ortaya atmadıq. Məhz Fransa Qarabağ kimi daxili məsələmizə müdaxilə etməyə başladı. Bu, nəinki həmin mövzuya, hətta siyasi gündəliyimizə də şamil edildi. Bir sözlə, buna son qoyulmalıdır. Düşünürəm ki, hər iki tərəf bunu necə etməyi bilir.

**Müxbir:** Prezident Əliyev, qonağımız olduğunuza görə çox sağ olun. "France-24" kanalında "Üzbəüz" verilişinə baxdığınıza görə hamınıza minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Adları Vətən səmasında əbədi yazılan qəhrəmanlar

*Hərbi Hava Qüvvələrinin hərbi qulluqçuları olan şəhidlərimiz Vətən səmasında yazılan şücaət dastanının ən uca səhifələridir. Onlar torpağımızı yalnız yerdə deyil, göydə də qorumağın məsuliyyətini çiyinlərində daşıyaraq son nəfəslərinədək andlarına sadiq qaldılar. Səmanın dərinliyində Vətənin keşiyini çəkən igidlər yalnız hərbi vəzifəni deyil, xalqın etibarını da şərəflə daşıdılar. Onların qalxdığı hər uçuş, icra etdiyi hər manevr millətimizin, torpağımızın təhlükəsizliyi naminə idi. Polad qanadların arxasında döyünən ürəklərin Vətən sevgisi səmanın sonsuzluğunda əbədiyyətə qovuşdu. Bu igidlər həyatlarını göylərdə şərəflə tamamlayaraq adlarını ordumuzun şanlı tarixinə qızıl hərflərlə yazdılar.*

**"Azərbaycan Ordusu"**

### Polkovnik-leytenant Fəxrəddin Əsgərov



1974-cü il iyunun 29-da Qazax rayonunda dünyaya göz açıb. O, orta təhsilini Qazax rayonunun 2 saylı orta məktəbində alıb. Orta məktəbdə oxuyarkən könüllü olaraq Birinci Qarabağ döyüşlərində Qazax rayonunun təmasda olan kəndləri istiqamətində iştirak edib.

1992-ci ildə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstituta) daxil olub və elə həmin il müsabiqə yolu ilə seçilərək təhsilini davam etdirmək üçün Türkiyə Respublikası Ali Hərbi Təyyarəçilik Məktəbinə (Hava Harp Okulu) göndərilib. Burada oxuduğu müddətdə də həm savadı, çalışqanlığı, həm də nəzakətli davranışı ilə bütün komandanlığın, kursant yoldaşlarının hörmətini və sevgisini qazanıb.

1996-cı ildə Ali Hərbi Təyyarəçilik Məktəbini fərqlənmə ilə bitirib.

1996-2008-ci illərdə "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib. Xidmət müddətində keçirilən hərbi paradların təşkilində yüksək fəallıq göstərib, Azərbaycan Bayrağını Vətən səmasına çəkən ilk pilotlarımızdan olub.

"Hərbi xidmətlərə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı və "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif olunub.

Təyyarəçilik məktəbində kompüter mühəndisliyi bölümündə təhsil alıb. Xidmət etdiyi dövrdə Li-39, Su-17, Su-25, MİQ-29 tipli döyüş təyyarələrinin sirlərini qısa zamanda öyrənərək ölkəmizin gənc hərbi təyyarəçilərinin yetişdirilməsində təlimatçı-təyyarəçi kimi fəal iştirak edib.

Polkovnik-leytenant Fəxrəddin Əsgərov 29 yanvar 2008-ci il tarixdə döyüş hazırlığı planına əsasən MİQ-29 təyyarəsi ilə təlim uçuşu zamanı baş verən texniki nasazlıq səbəbi ilə Xızı rayonu Şurabad kəndinin yaxınlığında qəzaya uğrayıb. Təyyarə Xəzər dənizinə düşüb. Şəhidimizin nəşi uzun sürən axtarışlara baxmayaraq tapılmayıb.

16 fevral 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Fəxrəddin Əsgərova şəhidlik statusu verilib.

### Polkovnik Zaur Nudirəliyev



1978-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olub. 1985-1992-ci illərdə Sabunçu rayonunun Zabrat qəsəbəsində 192 nömrəli tam orta məktəbdə təhsil alıb. 1992-ci ildə yüksək nəticələrlə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 1995-2000-ci illərdə Türkiyə Ali Hərbi Hava Qüvvələri Məktəbində "Təyyarəçi" ixtisası üzrə təhsilini davam etdirib.

2000-2020-ci illərdə "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib.

2011-ci il noyabrın 2-dən 2013-cü il iyunun 24-nə qədər Almaniyanın Hürt şəhərində alman dilinin öyrənilməsi məqsədilə General-Admirallar üçün Hərbi Liseydə təhsil alıb.

Xidməti müddətində müdafiə naziri tərəfindən müxtəlif medallara layiq görülüb.

İkinci Qarabağ müharibəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin Komandanlığı tərəfindən verilən "Su-25" hücum təyyarələrində yeni üsullardan istifadə olunması tapşırığı ilə nişangah istifadə etmədən, riyazi üsullarla bombaların atılmasının yeni üsulunu icra edib, həmçinin "Su-25" hücum təyyarəsindən lazer güdümlü bombaların birinci atışını reallaşdırıb.

Oktyabrın 4-də Cəbrayıl rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Azərbaycanın şanlı hərb tarixində "Atəş ramı" edən birinci pilotdur.

2020-ci il noyabrın 2-də II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunələrinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamlarına əsasən, Zaur Nudirəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

### Polkovnik-leytenant Famil Məmmədli



15 oktyabr 1974-cü ildə Ağsu rayonunun Abbasxanlı kəndində anadan olub. 1992-ci ildə orta məktəbi bitirərək Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstituta) qəbul olub və həmin il müsabiqə yolu ilə seçilərək İstanbul Hava Harp Okuluna təhsil almağa göndərilib. 1996-cı ildə məktəbi bitirəndən sonra Azərbaycan Hərbi Hava Qüvvələrində xidmətə başlayıb.

3 mart 2010-cu ildə Hərbi Hava Qüvvələrinə məxsus Su-25 təyyarəsi ilə hərbi döyüş təlimi zamanı təyyarədə nasazlıq baş verib. Təyyarənin Tovuz rayonunun Aşağı Ayıblı kəndinin üzərinə düşmə təhlükəsinin olduğunu görən pilot, onu bir qədər kənara yönəltməyi bacarıb. Yüzlərlə insanın taleyini düşünərək öz həyatı bahasına bir kəndi və onun camaatını faciədən xilas edib və şəhid olub.

2010-cu il martın 4-də II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn edilib.

### Polkovnik-leytenant Rəşad Atakişiyev



1985-ci il yanvarın 7-də Şəmkir rayonunun Pravda (hazırkı Qılıncbəyli) kəndində anadan olub. İlk təhsilini Şəmkir rayonunun Şöhrət Hüseynov adına Qılıncbəyli kənd tam orta məktəbində, daha sonra Samux rayonunun Alabaşlı kənd orta məktəbində alıb. 2002-2006-cı illərdə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin "Uçuş mühəndisi" ixtisasına yiyələnərək oranı yüksək nəticələrlə başa vurub.

2006-2019-cu illərdə "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib. Aprel döyüşlərinin fəal iştirakçısı olub.

Təcrübəli pilotlar sırasına və hərbi hissə komandirinin müavini vəzifəsinə yüksələrək 2018-ci ilin oktyabrında Real TV-də yayımlanan "Şahinlər" filmində iştirak edib, havada ən çətin, təhlükəli manevrlərin öhdəsindən bacarıqla gəlib. Həmçinin Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı keçirilən hərbi paradda səmada bacarıqlarını nümayiş etdirib. Ayrıca Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "Turaz Qartalı" devizi altında keçirilən birgə taktiki-uçuş təlimlərində iştirak edib.

2019-cu il iyulun 24-ü Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29 təyyarəsi Xəzər dənizi üzərində qəzaya uğrayıb. Avqustun 21-də Rəşad Atakişiyevin nəşi II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn olunub.

2021-ci il mayın 7-də polkovnik-leytenant Rəşad Atakişiyevə şəhid statusu verilib.

### Polkovnik-leytenant Ramiz Qasımov



1975-ci il fevralın 17-də Beyləqan şəhərində anadan olub. 1981-1992-ci illərdə Beyləqan şəhərində 4 nömrəli tam orta məktəbində, 1992-1997-ci illərdə Uçuş Hazırlığı Təlim Mərkəzində təyyarəçi ixtisası üzrə təhsil alıb. 1997-2020-ci illərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib. Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalında olan bütün tip helikopterlərlə uçuşlar edib.

2016-cı ilin Aprel və 2020-ci il iyulun 12-də Tovuz rayonu ərazisində baş verən döyüşlərdə iştirak edib.

27 sentyabr 2020-ci il tarixdə Talış-Madagiz istiqamətində döyüş tapşırığını icra edərək düşmən hədəflərini məhv etdikdən sonra aviabazaya geri qayıdan zaman içində özündən başqa 2 nəfər heyət üzvünün olduğu Mİ-17-1V tipli vertolyotla Tərtər rayonu istiqamətində düşmən tərəfinin hədəfi olub. Dərhal heyət üzvlərinə bortu tərk etmək əmri verən Ramiz Qasımov özü sürətlə hündürlüyü itirən helikopteri Tərtər rayonu ərazisində yaşayış məntəqələrinin üzərinə düşməməsi üçün böyük şücaət göstərib. Nəticədə helikopter boş səhəyə düşüb. 25 gün müddətində komada qaldıqdan sonra 2020-ci il oktyabrın 22-də hərbi hospitalda vəfat edib. Bir gün sonra II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması uğrunda düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunələrinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən, Ramiz Qasımova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

### Mayor Təbriz Musazadə



12 avqust 1981-ci ildə Gürcüstanın Dmanisi (Başkeçid) rayonunda anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini, 2004-cü ildə Uçuş Texniki Hazırlığın Təlim Mərkəzini, 2011-ci ildə Türkiyə Respublikasında Uçuş Təhlükəsizliyi kursunu bitirib.

24 iyun 2004-cü ildən etibarən Hərbi Hava Qüvvələrində xidmət edib.

Xidmət müddəti ərzində Azərbaycan Respublikası Prezidenti adından və müdafiə nazirinin əmri ilə 4 döyüş medalı ilə təltif edilib. Mayor rütbəsinədək yüksələn hərbçimiz 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. 2 aprel 2016-cı il tarixdə Füzuli rayonu Horadiz qəsəbəsi istiqamətində döyüş tapşırığı yerinə yetirərkən idarə etdiyi Mi-24 tipli helikopterinin düşmən tərəfindən vurulması nəticəsində həlak olub. Şəhidimizin nəşi yalnız aprelin 10-da neytral ərazidən götürülüb. Aprelin 11-də II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn olunub. Dəfn mərasimində müdafiə naziri, eləcə də digər dövlət qurumları və güc strukturlarının rəsmiləri iştirak ediblər.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılması, erməni işğalçılarının 2016-cı ilin aprelində qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdiyi qəhrəmanlıq və igidliyə görə Təbriz Musazadə ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

**(Ardı 5-ci səhifədə)**

# Adları Vətən səmasında əbədi yazılan qəhrəmanlar

(Əvvəli 4-cü səhifədə)

**Mayor Urfan Vəlizadə**



1978-ci il noyabrın 1-də Bakı şəhərində anadan olub. O, 1995-ci ildə orta məktəbi bitirdikdən sonra Türkiyədə Hava Hərbi Məktəbinə daxil olub. 2000-ci ildə təhsilini başa vurub. 2001-ci ildə Vətənə qayıdıb. 2005-ci ilə qədər "N" hərbi hissəsində ixtisasını hərbi helikopter üzrə təkmilləşdirib.

2005-2016-cı illərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib.

2016-cı ilin aprelində Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. 2 aprel 2016-cı il tarixdə Füzuli rayonu Horadiz qəsəbəsi istiqamətində döyüş tapşırığı yerinə yetirərkən idarə etdiyi Mi-24 tipli helikopterinin düşmən tərəfindən vurulması nəticəsində həlak olub. Şəhidimizin nəşi yalnız aprelin 10-da neytral ərazidən götürülüb. Aprelin 11-də II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn olunub. Dəfn mərasimdə müdafiə naziri, eləcə də digər dövlət qurumlarının və güc strukturlarının rəsmiləri iştirak ediblər.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Urfan Vəlizadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

**Kapitan Əfqan Aslanov**



1973-cü il iyulun 27-də Suraxanıda anadan olub. 1990-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 1994-cü ildə Uçuş Hazırlığı Təlim Mərkəzinə daxil olub, "Təyyarəçi" ixtisası üzrə təhsil alıb.

1997-2008-ci illərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib.

29 yanvar 2008-ci ildə MİQ-29 təyyarəsi ilə təlim-uçuşu zamanı Xızı rayonu Şurabad kəndi yaxınlığında qəzaya uğrayıb. Təyyarə Xəzər dənizinə düşüb və kapitan Əfqan Aslanov şəhid olub. Uzun sürən axtarışlar nəticəsində onun nəşi yalnız 25 fevral 2008-ci il tarixdə tapılaraq II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn olunub.

**Kapitan Yaşar Əhmədov**



1970-ci il noyabrın 11-də Qazax rayonunun Aslanbəyli kəndində anadan olub. 1977-1987-ci illərdə Aslanbəyli kənd tam orta məktəbində təhsil alıb. 1988-1990-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olub. 1992-ci ilin avqustunda qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Ukrayna Respublikası Kremençuq Uçuş Məktəbinə daxil olub. Azərbaycan Respublikası ilə Ukrayna Respublikası arasında olan müqavilə əsasında təhsil alıb. Milli Aviasiya Akademiyası yarandıqdan sonra 1994-cü ilin mayında təhsilini Milli Aviasiya Akademiyasında davam etdirib.

Ali təhsil aldığı illərdə Ukraynada və Azərbaycanda praktiki uçuşlar yerinə yetirib. Mi-2 və Mi-8 tipli helikopter pilotu kimi sertifikat alıb. 1996-cı ilin dekabrında Milli Aviasiya Akademiyasını müvəffiqiyyətlə bitirib və akademiyanın ilk məzunlarındandır. 1998-ci ildə Hərbi Hava Qüvvələrində pilot çatışmazlığı olduğuna görə könüllü olaraq hərbi təyyarəçi kimi xidmətə başlayıb.

1998-2013-cü illərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin 1-ci dərəcəli təlimatçı-pilotu olub.

11 fevral 2013-cü il tarixdə Qala-Kürdəmir istiqamətində uçuş həyata keçirən zaman Binə Ticarət Mərkəzinin üzərindən yaranmış nasazlıq səbəbi ilə idarə etdiyi helikopteri Xəzər dənizi istiqamətinə yönləndirərək baş verə biləcək çoxsaylı insan tələfatının qarşısını alıb. Qaradağ rayonu ərazisində "Şıx" çimərliyi üzərində helikopter qəzası nəticəsində həlak olub.

2013-cü il fevralın 13-də Qazax rayonunun Aslanbəyli kənd qəbiristanlığında dəfn edilib.

**Baş leytenant Əbu Bəkir İsmayılov**



1990-cı il fevralın 10-da Kürdəmir rayonunuda anadan olub. 2005-2008-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2008-2012-ci illərdə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində təhsilini davam etdirib.

2012-2016-cı illərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində xidmət edib.

Baş leytenant Əbu Bəkir İsmayılov 2016-cı ilin aprelində Azərbaycan-Ermənistan təmas xəttində baş verən döyüşlərdə iştirak edib. 2 aprel 2016-cı il tarixdə Füzuli rayonu Horadiz qəsəbəsi istiqamətində döyüş tapşırığı yerinə yetirərkən idarə etdiyi Mi-24 tipli helikopterinin düşmən tərəfindən vurulması nəticəsində həlak olub. Şəhidimizin nəşi yalnız aprelin 10-da neytral ərazidən götürülüb. Aprelin 11-də II Fəxri xiyabanda (indiki Hərbi Memorial Məzarlıq) dəfn olunub. Dəfn mərasimdə müdafiə naziri, eləcə də digər dövlət qurumlarının və güc strukturlarının rəsmiləri iştirak ediblər.

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

**Leytenant Bəhruz Zeynalov**



9 may 1989-cu ildə Ağdam şəhərində anadan olub. 1995-ci ildə Bakı şəhəri Nizami rayonu 272 saylı orta məktəbin birinci sinfinə gedib. 2004-2007-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2007-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil olub. 2009-cu ildə təyyarəçilik məktəbində təhsil alan zaman paraşüt tullanışlarında iştirak edib, müvəffəqiyyətlər qazanıb. 2010-cu ildə L-39 Təlim-döyüş təyyarəsində uçuşlar yerinə yetirərək, "Təyyarəçilərin uçuş hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirib. 2011-ci il iyunun 26-da Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini "Hava gəmilərinin uçuş istismarı" ixtisası üzrə bitirib, "leytenant" hərbi rütbəsi alaraq Hərbi Hava Qüvvələrinin helikopter bazasında pilot kimi xidmətə başlayıb. Xidmət dövründə qarşıya qoyulmuş bütün uçuş tapşırıqlarını peşəkarlıqla yerinə yetirərək, qısa bir zamanda yüksək uçuş qabiliyyətinə yiyələnib.

11 fevral 2013-cü il tarixdə Qala-Kürdəmir istiqamətində uçuş həyata keçirən zaman Binə Ticarət Mərkəzinin üzərindən yaranmış nasazlıq səbəbi ilə idarə etdiyi helikopteri Xəzər dənizi istiqamətinə yönləndirərək baş verə biləcək çoxsaylı insan tələfatının qarşısını alıb. Qaradağ rayonu ərazisində "Şıx" çimərliyi üzərində helikopter qəzası nəticəsində həlak olub.

2013-cü il fevralın 12-də Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbə qəbiristanlığında dəfn edilib.

**Baş leytenant Rüstəm Rüstəmov**



1979-cu ildə anadan olub. Cəlilabad şəhərində 8 saylı orta məktəbi bitirdikdən sonra Uçuş Hazırlığı Təlim Mərkəzini bitirib.

11 fevral 2013-cü il tarixdə Qala-Kürdəmir istiqamətində uçuş həyata keçirən zaman Binə Ticarət Mərkəzinin üzərindən yaranmış nasazlıq səbəbi ilə idarə etdiyi helikopteri Xəzər dənizi istiqamətinə yönləndirərək baş verə biləcək çoxsaylı insan tələfatının qarşısını alıb. Qaradağ rayonu ərazisində "Şıx" çimərliyi üzərində helikopter qəzası nəticəsində həlak olub.

2013-cü il fevralın 12-də Cəlilabad rayon qəbiristanlığında dəfn olunub.

**Gizir Ağasadıq Aslanov**



1991-ci il martın 1-də Neftçala rayonunun Kürqarabucaq kəndində anadan olub. Sakit Kərimov adına Qədimkənd kənd tam orta məktəbini bitirib.

2009-cu il oktyabrın 1-də indiki Neftçala rayon Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsindən hərbi xidmətə yollanıb.

Azərbaycan Ordusunun giziri Ağasadıq Aslanov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən ağır döyüşlərdə iştirak edib. Şuşa döyüşləri zamanı igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb. 2020-ci il noyabrın 8-də Neftçala rayonu Kürqarabucaq kənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Ağasadıq Aslanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Əsgər Ağacan Cəbrayılov**



2002-ci il mayın 20-də Şamaxıda anadan olub. Şamaxı rayon Regional Kollecində oxuyub, sonra təhsilini yarıda qoyaraq müddətli həqiqi hərbi xidmətə yollanıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak edib.

Ağacan Cəbrayılov noyabrın 10-da şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Ağacan Cəbrayılov ölümündən sonra "Hərbi xidmətlərə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

2020-ci il noyabrın 23-də Şamaxı rayon Şəhidlər xiyabanında dəfn edilib.

*Şəhidlərimizin qanadları artıq səmanı yarıb keçmir, amma adları Vətən göylərində əbədi ucalıq kimi qalır. Polad iradələri və sarsılmaz Vətən sevgiləri hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Şəhadətləri ilə zirvəyə yüksələn bu igidlər ordumuzun şərəf salnaməsində silinməz izlər qoydular. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Onların əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayır və yaşayacaq. Ucalıqdan ucalığa uzanan səmamızın keşikçilərinin hər biri xalqımızın yüksək etimadını qazanıb. Səmanı da Vətənimiz kimi sevən şəhidlərimizin bu günki ünvanı əbədiyyətdir.*

# General-polkovnik Zakir Həsənov: Azərbaycan Ordusu bundan sonra da Ali Baş Komandanın və xalqımızın etimadını layiqincə doğruldacaq



(Əvvəli 1-ci səhifədə)

General-polkovnik Z.Həsənov 8 Noyabr - Zəfər Günündə Azərbaycan Ordusunun Silahlı Qüvvələrinin digər strukturları ilə birgə keçirdiyi Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda nümayiş etdirilən nümunəvi nizam-intizamın və hərbi qüdrətin, eləcə də texniki təminatın Müzəffər Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini qürur hissi ilə bildirib.

Müdafiə naziri bildirib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq, ölkəmizin ərazi bütövlüyünün silahlı müdafiəsinin təşkili, hərbi təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsi, qoşunların əməliyyat imkanlarının və döyüş qabiliyyətinin artırılması, eləcə də müasir silah sistemlərinin Azərbaycan Ordusunun arsenalına daxil edilməsi istiqamətində tədbirlər ardıcıl və uğurla həyata keçirilir.

Kollegiya iclasının sədri Z.Həsənov 2025-ci ildə Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyətində qanunazidd hərəkətlərin qarşısının alınmasında və korrupsiya ilə mübarizədə, eləcə də kəşfiyyatın təşkilində Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının, Dövlət Təhlükəsizlik Xidmətinin və Hərbi Prokurorluğun rəhbərliklərinin dəstəyini xüsusi qeyd edərək, bu istiqamətdə görülən birgə tədbirlərin cari ildə də davam etdiriləcəyini kollegiya iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra Azərbaycan Ordusunda 2025-ci il ərzində həyata keçirilmiş xidməti-döyüş fəaliyyəti ətraflı şəkildə təhlil olunub. Qeyd edilib ki, əvvəlki illərdə olduğu kimi, 2025-ci ildə də Ali Baş Komandanın rəhbərliyi altında ordu quruculuğu sahəsində aparılan islahatlar qətiyyətlə davam etdirilib.

Kollegiya iclasında çıxış edənlər ötən il ərzində Azərbaycan Ordusunun hərbi qulluqçularının 15 ikitərəfli və çoxtərəfli beynəlxalq təlimlərdə iştirak etdiklərini bildiriblər. Müxtəlif növ hərbi təlimlərin və intensiv döyüş hazırlığı məşğələlərinin keçirilməsi nəticəsində qoşunların döyüş qabiliyyətinin, eləcə də şəxsi heyətin peşəkarlıq səviyyəsinin daha da yüksəldiyi vurğulanıb.

Qeyd olunub ki, 2025-ci ildə səfərbərlik hazırlığına da xüsusi diqqət yetirilib, səfərbərlik ehtiyatlarının keyfiyyətinin artırılması istiqamətində mühüm addımlar atılıb. Belə ki, 2025-ci il ərzində toplanışlara cəlb edilən 19 mindən artıq müxtəlif ixtisaslı hərbi vəzifəlilərin bilik və bacarıqları təkmilləşdirilib, onlara silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan istifadə qaydaları öyrədilib, eləcə də praktiki məşğələlər keçirilib. Bu istiqamətdə görülən işlərin 2026-cı ildə də davam etdiriləcəyi bildirilib.

Azad olunmuş ərazilərdə həyata keçirilən mühəndis-istehkam tədbirləri, yeni yolların çəkilməsi, eləcə də hərbi infrastrukturların yaradılması istiqamətində görülən işlər kollegiya üzvlərinin diqqətinə çatdırılıb. Məruzə olunub ki, 2025-ci il ərzində Mühəndis-istehkam bölmələri və dövlət qurumları tərəfindən 79 km-dək yeni yol inşa edilib, 67 km-dək yol qardan təmizlənib, 571 km-dən artıq yol isə bərpa edilib.

Şəxsi heyətin sağlamlığının qorunması və möhkəmləndirilməsi, praktiki məşğələlərin səmərəliliyinin artırılması və nizam-intizamın daha da gücləndirilməsi məsələlərinə xüsusi önəm verildiyi qeyd olunub.

Bildirilib ki, Azərbaycan Ordusunda qoşunların müəyyən edilmiş normalara uyğun olaraq vaxtında bütün növ maddi-texniki vəsaitlərlə təmin edilməsi, şəxsi heyətin keyfiyyətli qidalanmasının təşkili, silahların, zirehli və avtomobil texnikasının daim döyüş tətbiqinə hazır vəziyyətdə saxlanılması təmin olunub. Hərbi hissələrin raket, döyüş sursatları və digər hərbi avadanlıqlarla fasiləsiz təchiz edildiyi vurğulanıb.

Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər, xüsusilə yüksək dağlıq ərazilərdə yerləşən bölmələrdə ərzaq, əşya, yanacaq və odun ehtiyatlarının normalara uyğun yaradılması, hərbi qulluqçuların isti geyimlə tam təmin edilməsi və ümumilikdə maddi-texniki təminat sahəsində qarşıya qoyulan məqsədlərə ötən il ərzində nail olunduğu diqqətə çatdırılıb.

Daha sonra hərbi təhsil sistemində həyata keçirilən yeniliklər barədə ətraflı məlumat verilib. Hərbi akademik təhsil sisteminin müasirləşdirilməsi məqsədilə hərbi qulluqçular üçün bir sıra yeni kursların təsis edildiyi, hərbi uçot ixtisasları ilə ali təhsil proqramları arasında uyğunluğun təmin olunması məqsədilə yeni ixtisasların açıldığı bildirilib.

İclasda Azərbaycan Ordusunun nümayəndələrinin ölkə xaricində və daxilində bir sıra akademik və strateji kurslarda iştirak etməsinin peşəkar kadr hazırlığına müsbət təsir etdiyi xüsusi vurğulanıb.

Şəxsi heyətin komplektləşdirilməsi sahəsində də ötən il ərzində bir sıra yeniliklərin tətbiq edildiyi, eləcə də ştatların optimallaşdırılması məqsədilə Azərbaycan Ordusunda müvafiq struktur dəyişikliklərinin aparıldığı qeyd olunub.

Kollegiya iclası zamanı vəzifəli şəxslərin 2025-ci ilin yekunları və gələcək planlarla bağlı fikir və təklifləri dinlənilib.

Yekun çıxışında general-polkovnik Z.Həsənov Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyəti və ötən il ərzində əldə etdiyi nailiyyətlərin Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini bildirib. O, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində beynəlxalq əməkdaşlığın, eləcə də birgə təlimlərin regionda dayanıqlı sülh və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Nazir 2026-cı il üçün planlaşdırılan fəaliyyətlərdən bəhs edərək şəxsi heyətin peşəkarlığının artırılmasına, qoşunların döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsinə, təlim və səhra məşğələlərinin intensivliyinin artırılmasına, silahlanmaya yeni qəbul edilmiş silah və texnikanın mənimsənilməsi və səmərəli istifadəsinin yüksəldilməsinə, eləcə də innovativ texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilməsinin vacibliyini bir daha vurğulayıb.

Ayıq-sayıqlığın təmin olunması məqsədilə döyüş növbətçiliyi və qoşun xidmətinin təşkilinə daha məsuliyyətli yanaşmaq ilə bağlı müvafiq tapşırıqlar verilib.

Hərbi hissələrdə gündəlik xidməti fəaliyyət zamanı yanğın təhlükəsizliyi və digər təhlükəsizlik qaydalarına ciddi əməl olunmasının, qış mövsümündə havaların soyuması ilə əlaqədar mövsümi respirator virus infeksiyalarından qorunma tədbirlərinin gücləndirilməsinin zəruriliyi xüsusi qeyd edilib.

Müdafiə naziri qış aylarında Azərbaycan Ordusunun bölmələrinin təminat məsələlərinə ciddi nəzarətin həyata keçirilməsini, hərbi hissələrdə yaradılan bütün növ ehtiyatların daima nəzarətdə saxlanılmasını, şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasını, eləcə də psixoloji və tibbi təminat məsələlərinin diqqət mərkəzində olmasını aidiyyəti vəzifəli şəxslərə tapşırıb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi kollegiya iştirakçılarının diqqətinə çatdırılıb.

Kollegiya iclasının sonunda müdafiə naziri 14 fevral Hərbi Hava Qüvvələri günü münasibətilə şəxsi heyəti təbrik edib. Azərbaycan Ordusunun bundan sonra da Ali Baş Komandanın və xalqımızın etimadını layiqincə doğruldacağına əminliyini ifadə edib.

*Sıra hazırlığı*

# Hərbi intizam sıradan başlayır



Şəxsi heyətin mükəmməl şəkildə sıra hazırlığını mənimsəməsi vacib şərtdir. Çünki hərbi intizam sıradan başlayır. Əsgər hərbi xidmətə yeni başlayanda sıra hazırlığını nizamnaməyə uyğun nəzəri bilikləri öyrənir və öyrəndiklərini təcrübədə tətbiq edir. Üzərində qürurlu addımlarla addımladığı əsgərin torpağa bağlılığı yurduna, elinə, obasına sevgisindən güc alır. Beləliklə, hər bir əsgər sırada mətin addımlarla irəlilədikcə döyüş və mənəvi-psixoloji hazırlıqlarını yüksək səviyyəyə çatdırır.

Sıra Nizamnaməsi hərbi qulluqçuların silahsız və silahla sıra hərəkətləri və yerişini, bölmə və hissələrin piyada və nəqliyyat vasitələrində sıralarını, əsgəri salamlaşma qaydalarını, sıra baxışının keçirilməsini, hərbi hissənin Döyüş Bayrağının sırada vəziyyətini, onun çıxarılmasını və qaytarılmasını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydalarını müəyyənləşdirir.

"N" hərbi hissəsində şəxsi heyətin mətin və əzmli addım səsləri ətrafı bürüyüb. Onlar növbəti sıra hazırlığına aid dərsin çalışmasını aparırlar. Sıra hazırlığının fənn və üsullarını, nəzəri-praktiki elementlərini hərəkətlərində yerinə yetirirlər. Hərbi qulluqçular keçirilən dərsin şərtlərini qaydalara uyğun öyrəniblər. Verilən komandaların çevik şəkildə yerinə yetirilməsi bunu bir daha təsdiqləyir. Nizamlı şəkildə sağa-sola, geriyə dönmə hərəkətləri təcrübədə tətbiq olunur. Hazırlıqlı, vətənsevər Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini Zəfərlə sonlandırdı. 30 ilə yaxın müddətdə erməni hərbi birləşmələrinin işğalında qalmış tarixi torpaqlarımız azad olundu, respublikamızın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi.

Apardığımız müşahidələr bir daha onu təsdiqlədi ki, hərbi qulluqçularımız bütün hazırlıqlarını, o cümlədən də sıra hazırlığını müxtəlif mövzuları əhatə edən dərsləri çox səmərəli keçirirlər. Əyani vəsaitlərdən, tədris imkanlarından yetərincə bəhrələnirlər. Dərslərdə sıra hazırlığı ilə bağlı bütün mövzuları incəliklərinə qədər hərtərəfli öyrənirlər. Buradan da aydın olur ki, əsas məqsəd şəxsi heyətdə döyüş vərdişlərini aşılamaq və mənəvi-psixoloji ruh yüksəkliyini artırmaqdır. Sıradan başlanan hərbi intizam əsgərin xidmət dövründə qazandığı ən böyük uğurudur.

Öyrənirik ki, hər dəfə sıra hazırlığına başlamazdan əvvəl vaxtilə ordu sıralarında mətin addımlarla irəliləmiş, Azərbaycanımızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Hər dəfə bir qəhrəman şəhidimizin keçdiyi şanlı döyüş yolu haqqında qısa məlumat verilir. Şəxsi heyətə bu gün qürurla dayandıqları sıranın müqəddəsliyi aşılanır.

Taqım komandiri leytenant Həsən Əlizadə bildirdi ki, hazırda izlədiyimiz dərsin mövzusu "Silahla sıra üsulları və hərəkətlər. Silahla sıra duruşu" adlanır: "Silahla sıra duruşu silahsız sıra duruşu ilə eynidir. Silahla duruşda avtomatın "qayışda" vəziyyətində lüləsinin ağzı yuxarı, qatlanan qundaqlı avtomatın lüləsi aşağı vəziyyətdə saxlanılır, sol əlin barmaqları bitişik vəziyyətdə və orta barmaq şalvarın tikişi üzərinə qoyulur, əlin ovucu tam ayağa yapışdırılır".

Taqım komandiri mövzuya uyğun digər elementlər barədə də bilgiləri şəxsi heyətin diqqətinə çatdırdı. Şəxsi heyət də verilən tapşırıqları, qaydalara uyğun elementləri dərindən mənimsəyərək, təcrübədə tətbiqini mükəmməl şəkildə bacardı.

Müşahidələrimiz deyilənləri, doğrudan da, təsdiqlədi. Sırada dayanan hərbi qulluqçular verilən tapşırıqların öhdəsindən bacarıqla gəldilər.

Sıra hazırlığında fərqlənənlər - Bilal Abdullayev, Elvin İsmixanov, Xalid Məlikov və başqaları ilə söhbətimiz zamanı əmin olduq ki, onların hər biri Vətənimizin keşiyində ayıq-sayıq dayanan, mətin addımlarla irəliləyən qüdrətli Azərbaycan Ordusunun çevik hərbi qulluqçularıdır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# HHQ-nin xidməti-döyüş fəaliyyəti yüksək qiymətləndirilib

*2026-cı ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrində (HHQ) inspeksiya yoxlamaları keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, yoxlamalar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstünün ziyarəti ilə başlayıb.

Şəxsi heyətə və maddi texniki bazasına sıra baxışları keçirildikdən sonra şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən qoşunların yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi, döyüş növbətçiliyinin təşkili və aparılması, maddi-texniki təminatın vəziyyəti, qərargahların fəaliyyəti yoxlanılıb. Həmçinin şəxsi heyətdən komandir və fiziki hazırlıq üzrə normativlər qəbul edilib.

Daha sonra uçuş və texniki heyətlə görüşlər keçirilib. Hərbi aviasiyanın döyüşə hazırlıq səviyyəsi, onun imkanları və effektiv istifadəsi məqsədilə həyata keçirilən proseslər qiymətləndirilib, uçuş-enmə zolaqları və trenajor siniflərinə baxış olub.

İnspeksiya zamanı hərbi pilotların uçuş təcrübəsi və təlim-məşq hazırlığının plana uyğun icrası dəyərləndirilib. Şəxsi heyətin peşəkarlıq səviyyəsi, müasir silah və texnikanın praktik mənimsənilməsi, eləcə də təlim və məşqlərin keyfiyyəti yoxlanılıb.



Yoxlamaların nəticələrinə əsasən, HHQ-nin xidməti-döyüş fəaliyyəti və şəxsi heyətin təlim-döyüş vərdişləri müsbət qiymətləndirilib.







## 14 Fevral - Hərbi Hava Qüvvələri Günü

# Hərbi Hava Qüvvələri - səmamızın etibarlı müdafiəçiləri



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan aviasiya ənənələrinin tarixi isə daha qədimdir. Ölkəmizin ilk hərbi pilotu hesab edilən Fərrux ağa Qayıbov Birinci Dünya müharibəsində hava əməliyyatlarında iştirak edərək igidlik nümunəsi göstərmişdir. Bu fakt Azərbaycan xalqının aviasiya sahəsində peşəkar kadrlar yetişdirmək potensialının hələ ötən əsrin əvvəllərində formalaşdığını göstərir.

Yenidən bərpa edilmiş müstəqilliyimizin ilk illərində HHQ ciddi çətinliklərlə üzləşmişdi. Maddi-texniki baza məhdud idi, kadr çatışmazlığı hiss olunurdu. Lakin qısa müddətdə görülən tədbirlər nəticəsində Sovet dövründən qalan infrastruktur bərpa edildi, yeni pilotlar hazırlandı və hava qüvvələrinin döyüş hazırlığı mərhələli şəkildə artırıldı.

Birinci Qarabağ müharibəsi HHQ üçün mühüm sınaq oldu. Hərbi pilotlar müxtəlif istiqamətlərdə döyüş tapşırıqlarını yerinə yetirərək quru qoşunlarına hava dəstəyi göstərdilər və düşmənin mövqelərinə zərbələr endirdilər. Bu dövr Azərbaycan hərbi aviasiyasının formalaşma mərhələsi kimi tarixə düşdü.



1994-cü ildə atəşkəs əldə olunduqdan sonra Azərbaycan Ordusunda genişmiqyaslı islahatlara başlanıldı və hava qüvvələrinin modernləşdirilməsi prioritet istiqamətlərdən birinə çevrildi. Yeni texnologiyaların tətbiqi, silah-texnikanın yenilənməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi HHQ-nin imkanlarını əhəmiyyətli dərəcədə artırdı.

2016-cı ilin Aprel döyüşləri bu modernləşmənin nəticələrini açıq şəkildə nümayiş etdirdi. Müasir texnologiyalar, xüsusilə pilotsuz uçuş aparatları əməliyyat şəraitində effektivliyini göstərdi və hava komponentinin döyüşlərdə nə qədər vacib olduğunu bir daha təsdiqlədi.

2020-ci ildə baş vermiş Vətən müharibəsi isə HHQ-nin inkişafında yeni mərhələ oldu. Hava məkanına nəzarətin gücləndirilməsi, düşmənin hava hücumundan müdafiə vasitələrinin zərərsizləşdirilməsi və yüksək dəqiqlikli zərbələrin endirilməsi əməliyyatların ümumi uğuruna mühüm töhfə verdi. Pilotsuz uçuş aparatlarının geniş tətbiqi müasir müharibə taktikasında texnoloji üstünlüyün həlledici rolunu göstərdi.



Bu gün Azərbaycan Hərbi Hava Qüvvələri regionun texnoloji baxımdan inkişaf etmiş hava güclərindən biri hesab olunur. Pilotlar ölkə daxilində hazırlıq keçməklə yanaşı, müxtəlif xarici dövlətlərdə ixtisasartırma kurslarında iştirak edir, beynəlxalq təlimlərdə təcrübələrini artırırlar. Birgə təlimlər döyüş koordinasiyasını gücləndirir və real əməliyyat şəraitinə maksimum yaxın hazırlıq imkanı yaradır.

Son illərdə silahlanmaya qəbul edilən yeni texnika və aviasiya vasitələri HHQ-nin imkanlarını daha da genişləndirib. Bu yenilənmə yalnız mövcud təhlükələrə cavab vermək deyil, həm də gələcək çağırışlara hazır olmaq məqsədi daşıyır.

Hərbi Hava Qüvvələrinin əsas gücü isə şübhəsiz ki, onun şəxsi heyətidir. Peşəkar pilotlar, mühəndislər və texniki mütəxəssislər daim döyüş hazırlığını qoruyur, verilən tapşırıqları yüksək məsuliyyətlə yerinə yetirirlər. Azərbaycan səmasının etibarlı müdafiəsi onların fədakar xidmətinin nəticəsidir.

14 Fevral - Hərbi Hava Qüvvələri Günü münasibətilə bu şərəfli missiyanı yerinə yetirən bütün hərbi qulluqçuları təbrik edir, Azərbaycanın toxunulmazlığının təmin olunmasına və dövlətimizin müdafiə gücünün daha da möhkəmlənməsinə naminə şərəfli xidmətlərində uğurlar arzulayırıq.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**



# Azərbaycan və Serbiya arasında "İkitərəfli hərbi əməkdaşlıq danışıqları" keçirilib

Azərbaycan və Serbiya Müdafiə nazirlikləri nümayəndələrinin iştirakı ilə "İkitərəfli hərbi əməkdaşlıq danışıqları"keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə tərəflər arasındakı hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. 2025-ci il üçün hərbi əməkdaşlıq planında nəzərdə tutulmuş fəaliyyətlərin implementasiyasından məmnunluq ifadə edilib.

Sonda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Serbiya Respublikasının Müdafiə Nazirliyi arasında 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq Planı" imzalanıb.



# Bakıda NATO-nun Mobil Təlim Qrupunun kursu keçirilib



Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2026-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına (IPCP) əsasən, Bakıda NATO-nun Brunssumda yerləşən Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupunun ekspertləri tərəfindən "NATO-da logistikanın planlaşdırılması" mövzusunda təlim kursu keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, kurs ərzində "Əməliyyatlar zamanı əməliyyat planlama prosesində logistikanın təşkili" ssenarisi üzrə tapşırıqların yerinə yetirilməsi ilə bağlı nəzəri və praktiki məşğələlər təşkil olunub, həmçinin hərbi qulluqçulara NATO ilə ümumi tanışlıq və logistika ilə əlaqədar müxtəlif brifinqlər təqdim edilib.

Kursun sonunda iştirakçılara sertifikatlar verilib.

# Hərbi təhsil müəssisələrinin nümayəndələrinin şagirdlərlə görüşləri keçirilib



"Zəfər varisləri" layihəsi çərçivəsində Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun təşkilatçılığı ilə internat məktəblərinin şagirdlərinin xüsusi təyinatlı təhsil müəssisələrinə hazırlanmasına dair tədbirlərin icrasına başlanılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, layihə çərçivəsində Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin və Dövlət İmtahan Mərkəzinin nümayəndələrinin iştirakı ilə 1 və 2 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin şagirdləri ilə görüşlər keçirilib.

Görüşlərdə hərbi təhsil müəssisələri barədə geniş məlumat verilib və qəbulla bağlı videoçarxlar nümayiş etdirilib. Həmçinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsilini davam etdirmək istəyən şagirdlərin sənədlərinin qəbulu və qeydiyyatı aparılıb, imtahanlara hazırlıq üçün zəruri tədris vəsaitləri ilə təminatına köməklik göstərilib.

Şagirdlərə bildirilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı hərbi təhsil müəssisələrində təhsil aldıqları müddətdə də davam edəcək, məzun olduqdan sonra isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Silahlı Qüvvələrimizdə qürurla xidmət edəcəklər.

# Azərbaycan Ordusunda cüdo, yunan-Roma və sərbəst güləş üzrə birincilik keçirilir

Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda cüdo, yunan-Roma və sərbəst güləş üzrə birinciliyin açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Heydər Əliyev adına Hərbi İnstitutda təşkil edilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

İştirakçı komandaların tərkibi yoxlanıldıqdan sonra idmançılara yarışın məqsədi və təhlükəsizlik qaydaları çatdırılıb. Həmçinin hər üç yarışı idarə edəcək baş hakimlər təqdim olunublar.

Yarışın ilk günündə yunan-Roma güləşi üzrə mübarizə aparacaq idmançıların çəki dərəcələri müəyyən edildikdən sonra fərdi və komanda qarşılaşmalarına start verilib.

Qeyd edək ki, yarışlarda hər idman növü üzrə 10 çəki dərəcəsində 11 komandadan ümumilikdə 297 idmançı iştirak edir.



# Xəbərlər: hadisələr, faktlar



## Türkiyə MN: Ordu vilayətində Rusiyaya məxsus olduğu ehtimal edilən PUA düşüb

Türkiyənin Milli Müdafiə Nazirliyi ölkənin Ordu vilayətinin şimal-şərqində Rusiya silahlı qüvvələrinə məxsus olduğu güman edilən pilotsuz uçuş aparatının (PUA) aşkarlandığını bildirib.

Ünye rayonundakı qəza yerinə xüsusi təyinatlı qüvvələr göndərilib.

Aparılan təhlillər nəticəsində dronun partlayıcı maddə daşımadığı məlum olub.

Aşkar edilən PUA əlavə müayinə üçün Ünye rayonundakı polis idarəsinə aparılıb.

Türkiyə mediasının məlumatına görə, son iki ayda bu ölkədə aşkarlanan dronların sayı beşə çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Azərbaycan paralimpiyaçısı beynəlxalq turnirdə



İtaliyanın Pila şəhərində paradağ xizəyi üzrə turnir start götürüb.

Yarışda Azərbaycan paralimpiyaçısı Polad Rzayev də mübarizə aparır.

İdmançımız LW3 kateqoriyası üzrə çıxış edir.

## Millətlər Liqasındakı rəqiblərimiz müəyyənləşib

UEFA Millətlər Liqasının 2026/2027-ci il mövsümünün püşkü atılıb.

Belçikanın paytaxtı Brüsseldə təşkil edilən püşkatmanın nəticəsinə görə D liqasında mübarizə aparacaq Azərbaycan millisinin rəqibləri müəyyənləşib.

Püşk zamanı birinci səbətdə yer alan millimiz 2-ci qrupda Litva və Lixtenşteyn yığmaları ilə qarşılaşacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 69
Nüsxə 3621